*layihə*

**AZƏRBAYCAN RESPUBLİKASI**

**NAZİRLƏR KABİNETİ**

**Q Ə R A R**

**№ _____**

**Bakı şəhəri,** **«___» ___________ 201_-ci il**

Elm, ədəbiyyat və incəsənət əsərlərinin sifariş, o cümlədən dövlət sifarişi əsasında yaradılmasına və əsərlərin nəşrinə görə müəllif qonorarının və əsərlərin nəşrə hazırlanması ilə əlaqədar işlərə görə haqqın minimum məbləğləri haqqında

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 may tarixli 759 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Elm, ədəbiyyat və incəsənət əsərlərinin sifariş, o cümlədən dövlət sifarişi əsasında yaradılmasına və əsərlərin nəşrinə görə müəllif qonorarının və əsərlərin nəşrə hazırlanması ilə əlaqədar işlərə görə haqqın minimum məbləğləri bu qərarın 1, 2 və 3 nömrəli əlavələrinə uyğun olaraq təsdiq edilsin (Əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri Artur Rasi-zadə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
"____" __________201_-ci il tarixli __ nömrəli
qərarı ilə təsdiq edilmişdir

**1 nömrəli əlavə**

Elm, ədəbiyyat və incəsənət əsərlərinin sifariş, o cümlədən dövlət sifarişi əsasında yaradılmasına görə müəllif qonorarının minimum məbləğləri

## I. ORİJİNAL ƏDƏBİ-BƏDİİ ƏSƏRLƏR

| № | Əsərlərin növləri | Bir çap vərəqinə (40000 çap işarəsi) görə müəllif qonorarının minimum məbləği (manatla) | Bütöv əsərə görə müəllif qonorarının minimum məbləği (manatla) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | **Bədii nəsr:**<br>böyüklər üçün<br>uşaqlar üçün | <br>430<br>380 | |
| 2. | Bədii publisistika | 280 | |
| 3. | Bir çap vərəqinə qədər bədii hekayə | | 180 |
| 4. | Xalq yaradıcılığı nümunələrinin toplanması və işlənməsi (nəsrlə)<br><br>**Ssenarilər:**<br>Kinossenari<br>Televiziya tamaşasının ssenarisi<br>Bədii televiziya filminin ssenarisi<br>Sənədli televiziya filminin ssenarisi<br>Radiotamaşanın ssenarisi | 170<br><br><br>250<br>230<br>220<br>210<br>190 | |
| 5. | **Poeziya:**<br>böyüklər üçün<br>uşaqlar üçün | <br>1,7 (hər misraya görə)<br>1,5 (hər misraya görə) | |
| 6. | Xalq yaradıcılığı nümunələrinin toplanması və işlənməsi (şeirlə) | 0,5 (hər misraya görə) | |
| 7. | Uşaqlar üçün elmi-kütləvi ədəbiyyat | 220 | |
| 8. | Ədəbi-tənqidi, ədəbiyyatşünaslıq və sənətşünaslıq əsərləri | 350 | |
| 9. | Ədəbi-tənqidi resenziyalar | | 200 |
| 10. | Giriş məqaləsi, ön sözü, son söz | | 150 |
| 11. | Şərhlər və qeydlər | 150 | |

**Qeyd:** Bu bölmədə göstərilən əsərlərə görə müəllif qonorarlarının minimum məbləği "Ədəbiyyat və incəsənət əsərlərinin sifariş əsasında yaradılmasına, onların ilk kütləvi ifa və ya nümayiş hüququnun alınmasına görə müəllif qonorarının, yubiley, dövlət tədbirləri və xüsusi təyinatlı konsert proqramları üçün yaradıcı heyət və ifaçılara ödənilən haqqın minimum miqdarının və verilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 52 nömrəli Qərarında nəzərdə tutulan əsərlərə şamil olunmur.

## II. ORİJİNAL ELMİ, SİYASİ, TEXNİKİ, TƏDRİS VƏ DİGƏR ƏDƏBİYYAT

| | | | |
|---|---|---|---|
| 1. | Siyasi, sosial-iqtisadi və hüquqa dair əsərlər | 200 | |
| 2. | Fəlsəfi, elmi, təbiətşünaslıq, elmi-texniki və elmi-nəzəri əsərlər | 250 | |
| 3. | Dərsliklər | 200 | |
| 4. | Dərs vəsaitləri | 150 | |
| 5. | Lüğətlər | 230 | |
| 6. | Ensiklopediyalar | 400 | |
| 7. | Məlumat kitabları | 180 | |
| 8. | Not və digər musiqi nəşrləri | 180 | |
| 9. | Foto albomlar | 150 (hər fiziki çap vərəqi üçün) | |
| 10. | Digər ədəbiyyatlar | 150 | |
| 11. | Xəritələr, o cümlədən arxeoloji xəritələr, qrafik təsvirlər, arxeoloji kataloqlar və numizmatika kataloqları | | 30 (A5 formatlı hər səhifə üçün) |

## III. ƏSƏRLƏR TOPLUSU

| № | Topluların növləri | Bir çap vərəqinə (40000 çap işarəsi) görə müəllif qonorarının minimum məbləği (manatla) |
|---|---|---|
| 1. | Tematik toplular | 40 |
| 2. | Uşaqlar üçün ensiklopedik kitablar | 50 |
| 3. | Bədii ədəbiyyat üzrə müntəxəbatlar | 40 |
| 4. | Ədəbi-bədii materiallardan ibarət toplular:<br>a) elmi - tekstoloji hazırlıq tələb olunduqda<br>b) tekstoloji hazırlıq tələb olunduqda | <br>100<br>60 |
| 5. | Folklor nümunələrindən ibarət toplular, o cümlədən atalar sözü, məsəllər və aforizmlər, aşıq şeirlərindən ibarət toplular, folklor müntəxəbatları | 70 |
| 6. | Arxiv materialları topluları | 150 |
| 7. | **Toplular, bircildliklər, seçilmiş əsərlər, əsərlərin külliyatı (bədii ədəbiyyatdan başqa):**<br>a) elmi - tekstoloji hazırlıq tələb olunduqda<br>b) tekstoloji hazırlıq tələb olunmadıqda | <br><br>50<br>40 |
| 8. | Rəsmi materiallardan ibarət sistemləşdirilmiş toplular, izahlı və digər kataloqlar | 40 |
| 9. | Söz mətni üstünlük təşkil edən musiqili toplular | 50 |
| 10. | Musiqili material üstünlük təşkil edən musiqili toplular | 50 |

## IV. ƏSƏRLƏRİN TƏRCÜMƏSİ

| № | Əsərin növü | Bir çap vərəqinə (40000 çap işarəsi) görə müəllif qonorarının minimum məbləği (manatla) |
|---|---|---|
| 1. | **Ədəbi-bədii əsərlər**<br>**Bədii nəsr (o cümlədən uşaqlar üçün əsərlər, həmçinin pyeslər və ssenarilər):**<br>Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>qərb xalqlarının dillərindən<br>qərb xalqlarının dillərinə<br>şərq xalqlarının dillərindən<br>şərq xalqlarının dillərinə | <br><br><br>220<br>300<br>320<br>400<br>320<br>400 |
| 2. | **Poeziya (o cümlədən uşaqlar üçün əsərlər, həmçinin pyeslər və ssenarilər):**<br>Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>qərb xalqlarının dillərindən<br>qərb xalqlarının dillərinə<br>şərq xalqlarının dillərindən<br>şərq xalqlarının dillərinə | <br><br>1,0 (hər misra üçün)<br>1,0 (hər misra üçün)<br>1,0 (hər misra üçün)<br>1,0 (hər misra üçün)<br>1,0 (hər misra üçün)<br>1,0 (hər misra üçün) |
| 3. | Ədəbi-tənqidi, ədəbiyyatşünaslıq və sənətşünaslıq əsərləri | 250 |
| 4. | Plakatlar üçün şeirlə mətnlər-epiqramlar | 50 |
| 5. | **Siyasi, sosial-iqtisadi, fəlsəfi, hüquq, elmi, texniki, təbiətşünaslıq, elmi-nəzəri əsərlər:**<br>**Ali, orta ixtisas, texniki peşə və orta ümumtəhsil məktəbləri üçün bütün növ dərsliklər və dərs vəsaitləri, digər ədəbiyyatlar:**<br>Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>Qərb xalqlarının dillərindən<br>Qərb xalqlarının dillərinə<br>Şərq xalqlarının dillərindən<br>Şərq xalqlarının dillərinə | <br><br><br><br><br>200<br>250<br>250<br>300<br>250<br>300 |
| 6. | **Folklor mətnlərinin tərçüməsi:**<br>a) türk dillərindən<br>b) rus dilindən<br>c) digər dillərdən | <br>200<br>180<br>160 |

**Qeydlər:**

1. Əsərin sifariş əsasında yaradılmasına görə müəllif qonorarının məbləği müvafiq əsərin yaradılmasına görə 1 nömrəli əlavədə göstərilmiş minimum məbləğdən az olmamaqla, müəllif və sifarişçi arasında bağlanmış müəllif müqaviləsi əsasında müəyyən edilir.

2. Sifariş əsasında yaradılmış əsərdən istifadəyə müstəsna hüquqlar, müəllif və sifarişçi arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmadıqda sifarişçiyə məxsus olur.

3. Əsərin sifariş əsasında yaradılmasına görə müəllif və sifarişçi arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmadıqda, müqavilə şərtləri əsərlərin nəşri ilə bağlı məsələlərə şamil edilmir.

4. Əvvəllər nəşr edilmiş əsərlərin sifarişlə yenidən işlənməsinə görə müvafiq yaradıcılıq ittifaqlarının və ya Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəyi əsasında orijinal əsər üçün nəzərdə tutulan müəllif qonorarının 40 faizinə qədər qonorar ödənilə bilər.

5. Qədim və nadir dillərdən Azərbaycan dilinə, eləcə də Azərbaycan dilindən həmin dillərə tərcümə zamanı 4-cü bölmənin 1 və 2-ci bəndlərində nəzərdə tutulan qonorar məbləğləri 40 faiz artırılır.

6. Tərcüməçinin sətri tərcümədən istifadə etdiyi hallarda sətri tərcümə müəllifinə haqq ədəbi tərcüməçinin haqqı hesabına (aralarındakı müqavilə əsasında) ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
"___" ___________ 201_-ci il tarixli _____ №-li
Qərarı ilə təsdiq edilmişdir.

**2 nömrəli əlavə**

Elm, ədəbiyyat və incəsənət əsərlərinin nəşrinə görə
müəllif qonorarının minimum məbləğləri

## I. ORİJİNAL ƏDƏBİ-BƏDİİ ƏSƏRLƏR

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | Əsərlərin növü | Bir çap vərəqinə (40000 çap işarəsi) görə müəllif qonorarının minimum məbləği (manatla) | Bütöv əsərə görə müəllif qonorarının minimum məbləği (manatla) |
| 1. | Bədii nəsr (o cümlədən uşaqlar üçün, həmçinin elmi-bədii ədəbiyyat, publisistika, pyeslər, kinossenarilər) | 260 | |
| 2. | Bir çap vərəqinə qədər olan bədii hekayə | | 210 |
| 3. | Birpərdəli pyes | | 360 |
| 4. | Xalq yaradıcılığı nümunələrinin toplanması və işlənməsi (nəsrlə) | 150 | |
| 5. | Poeziya (o cümlədən uşaqlar üçün, həmçinin mənzum pyeslər) | 1,3 (hər misraya görə) | |
| 6. | Plakatlar üçün mənzum mətnlər-epiqramlar | | 40 |
| 7. | Xalq yaradıcılığı nümunələrinin toplanması və işlənməsi (nəzmlə) | 0,5 (hər misraya görə) | |
| 8. | Məktəbəqədər uşaqlar və kiçik yaşlı məktəblilər üçün əsərlər (nəsrlə-1 çap vərəqinə, nəzmlə-100 misraya qədər) | | 250 |
| 9. | **Ədəbi əsərlərin uşaqlar üçün işlənməsi:**<br>a) bir çap vərəqinə qədər<br>b) bir çap vərəqindən çox | <br><br>135 | <br>110 |
| 10. | Uşaqlar üçün elmi-populyar əsərlər | 220 | |
| 11. | Ədəbi tənqid, ədəbiyyatşünaslıq və sənətşünaslıq əsərləri | 300 | |
| 12. | Ədəbi-tənqidi resenziyalar (0,5 çap vərəqinə qədər) | | 145 |
| 13. | Orijinal biblioqrafik əsərlər, annotasiyalar, hadisələrin təqvimi, həyat və yaradıcılığa aid salnamələr və biblioqrafik göstəricilər | 160 | |
| 14. | Şərhlər və qeydlər | 150 | |
| 15. | Giriş məqaləsi | 275 | |

**Qeydlər:**

1. Bu bölmədə müəyyən edilən qonorar məbləğləri minimum məbləğlər hesab olunur. Qonorarın razılaşdırılmış məbləği (minimum məbləğdən az olmamaqla) müəllif (hüquq sahibi) və istifadəçi arasında bağlanmış müqavilə əsasında müəyyən edilir.

Bu bölmənin 2, 5, 6, 12, 13, 14 və 15-ci bəndlərində göstərilən müəllif qonorarının minimum məbləğləri buraxılan nüsxələrin sayından asılı olmayaraq müəyyən edilir.

2. Bu bölmədə nəzərdə tutulan əsərlərin tirajı müəllif və istifadəçi arasındakı müqavilə ilə müəyyən edilir.

3. Bədii miniatürlərə görə müəllif qonorarı onların bədii dəyərindən və həcmindən asılı olaraq hər əsərə görə 30 manatdan az olmamaq şərti ilə müəyyən edilir. Müəllifin müxtəlif əsərlərdən ibarət topluya daxil edilən hər bədii miniatürünə görə müəllif qonorarı ayrıca hesablanır.

4. Əsərin təkrar nəşrinə görə müəllif qonorarının minimum məbləği, müəllif və istifadəçi arasında bağlanmış müəllif müqaviləsində başqa qayda müəyyən edilmədikdə, həmin əsərin birinci nəşri üçün nəzərdə tutulan məbləğin 70 faizi həcmində müəyyən edilir.

5. Əsərin müxtəlif vaxtlarda hissə-hissə çap olunduğu hallarda müəllif qonorarı hər hissəyə görə mövcud normalar çərçivəsində ayrıca ödənilir.

6. Dərsliklərə, müntəxəbatlara və digər dərs vəsaitlərinə daxil edilən əsərə görə müəllif qonorarı dərsliklər üçün müəyyən edilmiş tiraj norması əsas götürülməklə həmin növ əsərin nəşri üçün nəzərdə tutulan minimum məbləğdən az olmamaqla hesablanır.

7. Əvvəllər xarici dillərin birində nəşr olunmuş ədəbi-bədii əsər Azərbaycan dilində ilk dəfə nəşr edildiyi halda müəllifə müvafiq orijinal əsərin nəşri üçün nəzərdə tutulan qonorar tam həcmdə ödənilir. Həmin əsərin təkrar nəşrinə görə müəllif qonorarının həcmi bu qeydlərin 4-cü bəndinə uyğun qaydada müəyyən edilir.

## II. ORİJİNAL ELMİ, SİYASİ, SOSİAL-İQTİSADİ, TEXNİKİ ƏSƏRLƏR, TƏDRİS VƏ DİGƏR ƏDƏBİYYAT

| № | Əsərlərin növü | Bir çap vərəqinə görə (40000 çap işarəsi) müəllif qonorarının minimum məbləği (manatla) | Bütöv əsərə görə müəllif qonorarının minimum məbləği (manatla) |
|---|---|---|---|
| 1. | **Elmi, siyasi, sosial-iqtisadi, fəlsəfi, hüquq, texniki, təbiətşünaslıq, elmi-nəzəri ədəbiyyat:** | | |
| | a) kütləvi-siyasi və elmi-kütləvi əsərlər, | 210 | |
| | b) monoqrafiyalar | 210 | |
| 2. | Elmi-nəzəri, tibbi, elmi-texniki və təbiətşünaslığa aid əsərlər | 195 | |
| 3. | Elm və texnikanın bütün sahələri üzrə elmi-kütləvi ədəbiyyat | 180 | |
| 4. | Biliklərin bütün sahələrinə aid, o cümlədən təcrübə mübadiləsi, elmi-texniki və digər sahələr üzrə sorğu kitabçaları, kataloq-sorğu kitabçaları və s. | 160 | |
| 5. | **Tədris ədəbiyyatı:** | | |
| | a) dərsliklər | 200 | |
| | b) ali, orta ixtisas məktəbləri və orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün dərs vəsaitləri | 130 | |
| | c) ali və orta ixtisas məktəblərinin müəllim və tələbələri üçün mühazirələr və mühazirə kursları, orta ixtisas məktəbləri və orta ümumtəhsil məktəblərinin I- IV sinif şagirdləri üçün dərs vəsaitləri | 125 | |
| | ç) təhsil müəssisələrində və məktəbəqədər müəssisələrdə tədris prosesinin metodikası və təşkili üzrə ədəbiyyat | 120 | |
| | d) ali və orta ixtisas məktəblərinin tələbələri üçün tədris-metodiki ədəbiyyat | 120 | |
| | **e) təhsil müəssisələri və təbliğat mühazirələri üçün cədvəl və əyani vəsaitlər:** | | |
| | mətnlər | | 120 |
| | **qeydlər və şəkillər olan cədvəllər**: | | |
| | bir səhifə həcmində | | 30 |
| | yarım səhifə həcmində | | 25 |
| | orfoqrafiya, morfologiya, fonetikaya aid cədvəllər - 1 cədvələ görə | | 25 |

| | | | |
|---|---|---|---|
| 6. | **Ensiklopediyalar və ensiklopedik lüğətlər üçün məqalələr:**<br>a) 200 çap işarəsinə qədər<br>b) 500 çap işarəsinə qədər<br>c) 1000 çap işarəsinə qədər<br>ç) 3000 çap işarəsinə qədər<br>d) 6000 çap işarəsinə qədər<br>e) 10000 çap işarəsinə qədər<br>ə) 15000 çap işarəsinə qədər<br>f) 20000 çap işarəsinə qədər<br>g) 30000 çap işarəsinə qədər<br>h) 40000 çap işarəsinə qədər<br>i) 40000 çap işarəsindən artıq hissəyə görə | | <br>8<br>12<br>25<br>55<br>105<br>145<br>165<br>225<br>280<br>345<br>artıq hissə 1000 çap işarəsinə qədər olduqda:<br>200<br>1000 çap işarəsindən artıq olduqda:<br>250 |
| 7. | İzahlı lüğətlər, xüsusi terminlər lüğəti | 150 | |
| 8. | **Leksika və orfoqrafiyaya aid lüğətlər:**<br>a) əlifbası olan dillər<br>b) heroqliflərlə və mixi xətlə yazılan qədim və nadir dillər | <br>120<br>170 | |
| 9. | **Referat və şərhlər:**<br>a) Azərbaycan dilli mənbələr əsasında yazılanlar<br>b) xarici dillərdə olan mənbələr əsasında yazılanlar<br>v) qarışıq dillərdə olan mənbələr əsasında yazılanlar | <br>60<br>80<br>85 | |
| 10. | Giriş məqalələri, müqəddimələr, son sözlər | 185 | |
| 11. | Orijinal biblioqrafik əsərlər, biblioqrafik göstəricilər, annotasiyalar, hadisələr haqqında təqvim, həyat və yaradıcılıq salnamələri | 85 | |
| 12. | Texniki və digər albomlar | 60 | |
| 13. | Bütün növlərdən olan əsərlərə görə şərhlər, qeydlər | 50 | |
| 14. | **Təqvimlərin tərtibi (qoparılan və stolüstü):**<br>a) orijinal əsərlər<br>b) qoparılan və stolüstü təqvimlər üçün, illüstrasiyalar da daxil olmaqla ədəbi materialların seçilməsi | | <br>5<br>1 (hər məqaləyə görə) |
| 15. | Krossvordlar, çaynvordlar, kriptoqramlar, rebuslar, bilməcələr, bağlamalar, tapmacalar | | 5 (hər əsərə görə) |

**Qeydlər:**

1. Bu bölmədə göstərilən müəllif qonorarının minimum məbləğləri tirajdan asılı olmayaraq müəyyən edilir.
2. Universal Azərbaycan Milli Ensiklopediyası (o cümlədən çoxcildli milli ensiklopediya) üçün məqalələrə görə qonorar hesablanarkən bu bölmənin 5-ci bəndində nəzərdə tutulan məbləğlər iki dəfə artırılır.
3. Dərsliklərin təkrar nəşrinə görə birinci nəşr üçün hesablanmış müəllif qonorarının 70 faizindən az olmamaqla qonorar hesablanır.
4. Dərsliklərin və dərs vəsaitlərinin tirajını Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edir.

## III. MUSİQİLİ VƏ MUSİQİLİ-ƏDƏBİ ƏSƏRLƏR

| № | Əsərlərin növləri | Bütöv əsərə görə müəllif qonorarının minimum məbləği (manatla) |
|---|---|---|
| | **Opera, balet, musiqili komediya, müzikl (klavir və ya partitura)** | |
| 1. | Opera (çoxpərdəli) | 4000 |
| 2. | Balet (çoxpərdəli) | 2700 |
| 3. | Çoxpərdəli musiqili komediya, operetta, müzikl | 1500 |
| 4. | Birpərdəli opera, balet, musiqili komediya, operetta, müzikl | 650 |
| | **Simfonik orkestrlər üçün əsərlər (klavir və ya partitura)** | |
| 5. | Simfoniya | 1400 |
| 6. | Oratoriya | 1200 |
| 7. | Kantata | 700 |
| 8. | Orkestr üçün konsert, iri proqramlı simfonik əsər (poema) | 730 |
| 9. | Süita, uvertüra, fantaziya, rapsodiya və digər analoji simfonik əsərlər | 540 |
| 10. | Kiçik simfonik əsərlər (marş, rəqs və s.) | 250 |
| | **Xalq çalğı alətləri orkestri və nəfəsli alətlər orkestri üçün əsərlər** | |
| 11. | Orkestr üçün konsert, süita, uvertüra, fantaziya, popurri və s. | 650 |
| 12. | Kiçik formalı əsərlər (marş, rəqs və s.) | 250 |
| | **Estrada və konsert ansamblları üçün əsərlər** | |
| 13. | Süita, uvertüra, fantaziya | 320 |
| 14. | Kiçik pyeslər (marş, rəqs və s.) | 150 |
| | **Kamera əsərləri** | |
| 15. | Kvintet, kvartet, trio və digər ansambllar, solo və ya ansambl üçün sonata | 550 |
| 16. | Kamera ansamblı üçün süita, variasiya, skertso və s. | 300 |
| 17. | **Ayrı-ayrı alətlər üçün kiçik əsərlər (noktürn, prelyüd, etyüd, rəqs və s.):**<br>a) konsert ifası üçün<br>b) pedoqoji əsərlər | <br>100<br>80 |
| | **Vokal əsərlər** | |
| 18. | Xor üçün çoxhissəli əsərlər (çalğı alətlərinin müşayiəti olmadan) | 800 |
| 19. | Xor üçün birhissəli əsərlər (çalğı alətlərinin müşayiəti olmadan) | 200 |
| 20. | Fortepiano və başqa çalğı alətlərinin müşayiəti ilə çoxhissəli xor əsərləri | 600 |
| 21. | Fortepiano və başqa çalğı alətlərinin müşayiəti ilə birhissəli xor əsərləri | 180 |
| 22. | Müşayiətli və müşayiətsiz vokal ansamblları (duet, trio, kvartet, kvintet və s.) | 180 |
| 23. | Səs üçün və ya fortepianonun müşayiəti ilə xor üçün kütləvi və ya estrada mahnısı | 110 |
| 24. | Çalğı alətləri ilə müşayiət edilən səs üçün konsert əsərləri (romans, ballada, vokaliz və s.) | 130 |

**Qeydlər:**

Orijinal əsər, adətən, partiturada qəbul edilir, onun klaviri isə uyğunlaşdırma kimi qiymətləndirilir və orijinal əsərə görə nəzərdə tutulanın 40 faizi həcmində müəllif qonorarı ödənilir. Ayrı-ayrı hallarda (opera, balet, musiqili komediyanın nəşri zamanı) orijinal əsər klavirdə də qəbul edilə bilər; belə hallarda partituraya uyğunlaşdırma kimi baxılır və buna görə

orijinal əsər üçün nəzərdə tutulan qonorarın 70 faizi həcmində ödəniş verilir. Bu qayda 1-9-cu sıralarda sadalanan əsərlərə münasibətdə tətbiq edilir.

11-14-cü sıralarda göstərilən əsərlər partiturada təqdim olunur. Həmin əsərlərin klavirdə təqdim olunduğu hallarda partitura üçün müəyyən edilmiş ödənişin 40 faizi həcmində qonorar ödənilir.

Əsərin tirajı müəllif (hüquq sahibi) və istifadəçi arasındakı müqavilə ilə müəyyən edilir. Belə müqavilədə tiraj göstərilmədikdə əsərin partitura ilə minimum 100 nüsxə, klavirlə minimum 500 nüsxənin buraxılması nəzərdə tutulur.

**Musiqili əsərlər üçün mətnlər**

| | | |
|---|---|---|
| 25. | Opera librettosu | 800 |
| 26. | Operetta, musiqili komediya librettosu | 600 |
| 27. | Birpərdəli opera, operetta, musiqili komediya librettosu | 250 |
| 28. | Oratoriya librettosu | 450 |
| 29. | Kantata librettosu | 300 |
| 30. | Mahnı və romanslar üçün şeir mətni | 100 |

**Qeydlər:**

1. Libretto ayrıca broşüra kimi nəşr edilərkən müəllif (hüquq sahibi) və istifadəçi arasındakı müqavilədə başqa hal nəzərdə tutulmadıqda tiraj 1000 nüsxə müəyyən edilir.

2. Musiqili əsərlər üçün mətnlərin nəşrinə görə qonorarın məbləği yalnız bu əsərlərin ya ona yazılmış musiqi ilə birlikdə, ya da tamaşa və ya konsertə şərh kimi nəşr edildiyi hallarda tətbiq edilir.

**Musiqili-pedaqoji əsərlər**

| | | |
|---|---|---|
| 31. | Özfəaliyyət üçün musiqi dərsliyi | 540 |
| 32. | Məktəblər üçün musiqi dərsliyi | 540 |

**Qeydlər:**

1. Musiqi ilə bağlı dərslik və dərs vəsaitləri, musiqişünaslıq, tarix, musiqi nəzəriyyəsi üzrə kitablar və digər ədəbi işlərə görə qonorar müvafiq ədəbi əsərlər üçün müəyyən edilmiş qaydada ödənilir, tirajı isə müəllif (hüquq sahibi) və istifadəçi arasındakı müqavilə ilə müəyyən edilir.

2. Başqa növ ifaya uyğunlaşdırma zərurəti ilə əlaqədar orijinal əsərin fakturasının dəyişdirilməsinə uyğunlaşdırma kimi baxılır.

Uyğunlaşdırmaya görə ödəniş aşağıdakı qaydada verilir:

a) mürəkkəb musiqili fakturaya malik uyğunlaşdırmaya görə-orijinal əsər üçün nəzərdə tutulan miqdarın 20-40 faizi həcmində;

b) sadə növ uyğunlaşdırmaya görə-orijinal əsər üçün nəzərdə tutulan miqdarın 5-15 faizi həcmində;

c) direksionların tərtib olunmasına görə hər takt üçün 0,5 manat həcmində qonorar ödənilir.

3. Orkestrovka aşağıdakı qaydada ödənilir:

a) mürəkkəb növ orkestrovkalar (simfonik orkestr, xalq çalğı alətləri və nəfəsli alətlər orkestrləri və başqa mürəkkəb növ orkestrlər) üçün – hər takta görə 0,5-0,7 manat;

b) sadə növ orkestrovkalar üçün – hər takta görə 0,25-0,45 manat.

## IV. ƏSƏRLƏR TOPLUSU

| | Əsərlərin növləri | Bir çap vərəqinə görə (40000 çap işarəsi) tərtibatçıya hesablanan qonorarın minimum məbləği (manatla) | Bütöv əsərə görə tərtibatçıya hesablanan qonorarın minimum məbləği (manatla) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Tematik toplular | 60 | |
| 2. | Uşaqlar üçün ensiklopediya xarakterli kitablar | 60 | |
| 3. | Bədii ədəbiyyat üzrə müntəxəbatlar | 70 | |
| 4. | **Ədəbi-bədii materiallar toplusu:**<br>a) elmi-tekstoloji hazırlıq tələb olunduqda<br>b) tekstoloji hazırlıq tələb olunmadıqda | <br>45<br>30 | |
| 5. | Atalar sözləri, zərbi-məsəllər, aforizmlərdən ibarət toplular | 115 | |
| 6. | Bütün növlərdən olan, o cümlədən xüsusi lüğətlər üçün sözlüklər | 0,1 (hər sözə görə) | |
| 7. | 250 terminə qədər kiçik həcmli sözlüklər | 0,1 (hər sözə görə) | |
| 8. | İzahlı sözlüklər | 0,15 (hər sözə görə) | |
| 9. | Toplular, bircildliklər, seçilmiş əsərlər və əsərlər külliyyatı (bədii ədəbiyyatdan başqa)<br>a) elmi-tekstoloji hazırlıq tələb olunduqda<br>b) tekstoloji hazırlıq hazırlıq tələb olunmadıqda | <br><br>45<br>30 | |
| 10. | Rəsmi materiallardan ibarət sistemləşdirilmiş toplular, izahlı və digər kataloqlar | 20 | |
| 11. | Söz mətni çox olan musiqili toplular | 25 | |
| 12 | Musiqi materialı çox olan musiqili toplular | | Hər əsərə görə 15 manatdan az olmamaqla |

**Qeydlər:**

1. Topluların tərtib edilməsinə görə ödəniş tirajdan asılı olmayaraq müəyyən edilir.
2. Tərtibatçıya özünün topluya daxil etdiyi əsərinin tərtib olunmasına görə ayrıca qonorar ödənilmir.
3. Transliterasiyadan istifadə edilməklə tərtib olunan toplulara görə qonorarın miqdarı 50 faiz həcmində artırıla bilər.

## V. ƏSƏRLƏRİN TƏRCÜMƏSİ

| Əsərlərin növləri | Bir çap vərəqinə görə (40000 çap işarəsi) tərcüməçiyə hesablanan qonorarın minimum məbləği (manatla) | Bütöv əsərə görə tərcüməçiyə hesablanan qonorarın minimum məbləği (manatla) |
|---|---|---|
| 1. **Ədəbi-bədii əsərlər**<br>**Bədii nəsr (o cümlədən uşaqlar üçün əsərlər, həmçinin pyeslər və ssenarilər):**<br>a) Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>b) Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>c) qərb xalqlarının dillərindən<br>ç) qərb xalqlarının dillərinə<br>d) şərq xalqlarının dillərindən<br>e) şərq xalqlarının dillərinə | <br><br><br>150<br>150<br>165<br>165<br>165<br>165 | |
| **Poeziya (o cümlədən uşaqlar üçün əsərlər, həmçinin pyeslər və ssenarilər):**<br>a) Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>b) Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>c) qərb xalqlarının dillərindən<br>ç) qərb xalqlarının dillərinə<br>d) şərq xalqlarının dillərindən<br>e) şərq xalqlarının dillərinə | <br><br>195<br>195<br>210<br>210<br>210<br>210 | |
| Ədəbi-tənqidi, ədəbiyyatşünaslıq və sənətşünaslıq əsərləri | | 150 |
| Plakatlar üçün mənzum mətnlər-epiqramlar | | 15 |
| Həcmindən asılı olmayaraq mahnı mətnləri | | 60 |
| Uşaqlar üçün elmi – populyar ədəbiyyat | 110 | |
| Ədəbi-tənqidi resenziyalar (0,5 çap vərəqinə qədər) | | 55 |
| Şərhlər və qeydlər | 50 | |
| Giriş məqaləsi, ön sözü, son söz | 110 | |
| 2. **Siyasi, sosial-iqtisadi, fəlsəfi, hüquq, elmi, texniki, təbiətşünaslıq, elmi-nəzəri əsərlər:**<br>**Ali, orta ixtisas, texniki peşə və orta ümumtəhsil məktəbləri üçün bütün növ dərsliklər və dərs vəsaitləri, digər ədəbiyyatlar:**<br>a) Rus və Şərqi Avropa xalqlarının dillərindən<br>b) Rus və Şərqi Avropa xalqlarının dillərinə<br>c) Qərb xalqlarının dillərindən<br>ç) Qərb xalqlarının dillərinə<br>d) Şərq xalqlarının dillərindən<br>e) Şərq xalqlarının dillərinə | <br><br><br><br><br>185<br>185<br>200<br>200<br>200<br>200 | |

**Qeydlər:**

1. Qədim və nadir dillərdən tərcümə, yaxud həmin dillərə edilən tərcüməyə görə tərcüməçiyə bu qərarla tərcüməyə görə nəzərdə tutulmuş müəllif qonorarının minimum məbləğlərinin 25 faizi həcmində əlavə qonorar hesablanır.

2. Tərcümə edilmiş əsərlərin nəşrinə görə bu bölmədə göstərilən müəllif qonorarının minimum məbləğləri həmin əsərlərin tirajından asılı olmayaraq müəyyən edilir.

3. Tərcümə edilən orijinalın və ya aralıq tərcümənin müəllifinə, aralarındakı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, həmin əsərin orijinalının nəşrinə görə nəzərdə tutulan qonorarın 60

faizi həcmində müəllif qonorarı ödənilir. Həmin qonorar tərcüməçiyə ödənilən qonorardan əlavə nəzərdə tutulur.

4. Musiqili əsərlər üçün yazılmış mətnlərin tərcüməsi ona yazılmış musiqi ilə birlikdə nəşr edilirsə, tərcüməçiyə həmin əsərlərin adi nəşrinə görə müəyyən edilmiş qaydada müəllif qonorarı ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
“____” __________201_-ci il tarixli __ nömrəli
qərarı ilə təsdiq edilmişdir

**3 nömrəli əlavə**

Əsərlərin nəşrə hazırlanması ilə əlaqədar
işlərə görə haqqın minimum məbləğləri

| Sıra № | Işin adı | Bir çap vərəqi (40000 çap işarəsi) üçün görülən işə görə haqqın minimum məbləği (manatla) |
|---|---|---|
| 1. | **Orijinal mətnlərin redaktəsi:**<br>ədəbi-bədii mətnlər- nəsr<br>ədəbi-bədii mətnlər- poeziya (hər 700 misra üçün)<br>publisistik mətnlər<br>elmi-kütləvi və ictimai-siyasi mətnlər<br>elmi mətnlər | <br>65<br>65<br>50<br>50<br>75 |
| 2. | **Tərcümə mətnlərinin redaktəsi:**<br>ədəbi-bədii mətnlər- nəsr<br>ədəbi-bədii mətnlər- poeziya (hər 700 misra üçün)<br>publisistik mətnlər<br>elmi-kütləvi və ictimai-siyasi mətnlər<br>elmi mətnlər | <br>50<br>50<br>40<br>40<br>50 |
| 3. | Korrektura | 25 |
| 4. | **Bədii tərtibat – texniki redaktə:**<br>həcmi 10 ç.v. – nə qədər olan hər kitab üçün<br>həcmi 10 ç.v. – dən 20-ç.v.-ə qədər olan hər kitab üçün<br>həcmi 20 ç.v. – dən 30-ç.v-ə qədər hər kitab üçün<br>həcmi 40 v.-ə qədər və daha çox olan hər kitab üçün | <br>200<br>300<br>350<br>400 |
| 5. | Dizayn (səhifələnmə) | 0,5-0,8 (hər səhifə üçün) |
| 6. | Rəy verilməsi | 50 |
| 7. | İllüstrasiyalar | 15 (A5 formatlı hər səhifə üçün) |
| 8. | Transliterasiya (kiril əlifbasından, əski əlifbadan) | 20 (A5 formatlı hər səhifə üçün) |

**Qeyd:**

Əsərlərin nəşrə hazırlanması ilə əlaqədar işlərin işçinin vəzifə və funksiyalarına daxil olduğu və buna görə əmək haqqı aldığı halda bu əlavədə müəyyən edilən haqq məbləğləri ona şamil edilmir.